## AĞILLI ÇOBAN

Keçmişdə bir şah varmış,
Ova çox həvəskarmış.
Bir dəfə səhər-səhər
Qızarırkən şəfəqlər,
Bu şah mindi kəhərə,
Vida etdi şəhərə.
Ovlaqda at oynatdı,
Kaman çəkdi, ox atdı,
Şirləri, pələngləri
Vurdu, qayıtdı geri.
Günəş alovlanırdı,
Od içində yanırdı.
Qaralmışdı düzən, çöl,
Yoxdu bir bulaq, bir göl.
Bu şahın susuzluqdan
Ürəyi olmuşdu qan.
Kəhərini çaparaq,
Keçdi düzən, aşdı dağ.
Endi dik gədiklərdən,
Bir tüstü gördü birdən.
Tez o yana yönəldi,
Ağ bir çadıra gəldi.
Gördü burda bir çoban,
Bir it asıb ağacdan.
Çoban baş əydi əvvəl,
Sinəsinə qoyub əl,
Mehribanlıq eylədi,
Şirin dillə söylədi:
- Xoş gəlib əziz qonaq,
Ürəyi təmiz qonaq.
Şah enərək atından
Çadıra girdi, bir an
İstirahət etməkçün,
Sonra çıxıb getməkçün.
Gülər üzlü, mehriban,
Ağ saçlı qoca çoban
Güman çatırdı nəyə
Tez gətirdi süfrəyə.
Bir az su içdi Bəhram,
Ürəyi oldu aram.
Sonra dedi: - Ay qoca,
Qəlbin ucadır, uca;
Ancaq bir iş vardır, sən
Mənə düzünü desən,
Yeyərəm bu yeməkdən.
Boyun qaçırsan əgər,
Könlüm sınar, inciyər.
Anlat mənə bu sirri,
Nədir itin təqsiri,
Niyə asılıb dardan?
Köpək ki canavardan
Sürüləri qoruyar.
Bu işdə bir hikmət var.
Çoban dedi: - Ey cavan,
Sirri etmirəm pünhan.
Dinlə hekayətimi
İtdən şikayətimi
Bu it illər uzunu,
Bütün qoyun-quzunu
Qoruyurdu düşməndən.
Qurd gəlsəydi hər yandan,
Tez yolunu kəsərdi,
Canavarlar əsərdi
Bunun vahiməsindən,
Pələng kimi səsindən.
Vəfalı bir dost sandım,
Mən bu itə inandım.
Dedim duyar arzumu,
Mənim qoyun-quzumu,
Sevir sağ gözü kimi,
Qoruyar özü kimi.
Sürüyə baxdım bir gün,
Gözümdə qaraldı gün.
Gördüm yeddi toğlu yox,
Dərdim artdı həddən çox.
Üç-dörd gün daha keçdi,
Qəm ürəyimi biçdi,
Əskilmişdi beş qoçum,
Altı quzum, üç keçim.
Ah, nə deyim, ay cavan,
Sürümə düşdü talan,
Əskildi gündən-günə,
Düşdüm yaman bir günə.
Maldardım, çoban oldum,
Bir hilal kimi soldum.
Dedim güdüm itimi,
Yoxlayım igidimi.
Görüm nə olmuş buna,
Kim girmiş qılığına.
Bir gün durdum pusquda,
Gördüm it uyub qurda.
Açdım işin üzünü,
Bildim qoyun-quzunu
Bu verirmiş düşmənə,
Qəlb düşdü həyəcana.
Öc aldım canavardan,
İti də asdım dardan.
Şah bunu dinləyincə,
Düşündü bir az incə.
Dedi, şəksiz, gərək mən
İbrət alım bu işdən.
Neçə aydan bəridir
Ölkəm yaman geridir.
Çox uşaq qalır yetim,
əskilir rəiyyətim.
Bilmirəm nə oyundur,
Rəiyyətim qoyundur.
Vəzirim it, mən çoban,
Məni talayır düşmən.
Gərək bu gün vəzirdən
Haqq-hesab istəyim mən.



Bəhram mindi kəhərə,
Bir baş çapdı şəhərə.
Əmr elədi tustaqban
Getsin dərhal zindandan
Siyahını gətirsin,
Tez hüzura yetirsin.
Siyahıya baxdı şah
Ürəkdən çəkdi bir ah.
Gördü azğın bir vəzir
Xalqı incidir, əzir.
Atıb namusu, arı
Bir çox günahsızları
Basdırıb zindanlara,
Gününü edib qara.
İşdən olunca agah,
Vəziri tutdurdu şah.
Əmr etdi tustaqbana
Kim düşmüşsə zindana,
Gəlsin yanıma bu an,
Söz açsın günahından.
Dustaqlar bir-bir gəldi,
Baş əydi, səf düzəldi.
Yeddi ürəyi dağlı,
Qolu zəncirlə bağlı
Dustağı ayırdı şah.
Birinci çəkərək ah
Söylədi: - Şah sağ olsun,
Hər zəfəri dağ olsun.
Mənim çox gözəl, cavan,
İstiqanlı, mehriban
Əziz qardaşım vardı,
Üzü aya oxşardı.
Vəzir uyub malına,
Cahına, cəlalına
Öldürtdü qardaşımı,
Axıtdı göz yaşımı,
Talan etdi varını,
Apardı nigarını.
Bu hala etdim üsyan,
Məskənim oldu zindan.
Bunu dedi, inlədi,
Şah dustağı dinlədi,
Qəlbi od tutdu, yandı,
Gözləri dumanlandı.
Zindandan azad etdi,
Ürəyini şad etdi.

İkinci dustaq qəmli
Baxışları şəbnəmli
Baş əyib dedi: - Ey şah,
Məndə də yoxdur günah.
Bir gözəl bağım vardı,
Atamdan yadigardı.
Bu bağın şəlaləsi,
Nərgizi, al laləsi,
İncə qızılgülləri
Oxşardı könülləri.
Bir gün gözü dar vəzir,
Qudurğan, murdar vəzir
Gəlmişdi mənə qonaq.
Qəlbinə çox yatdı bağ.
Dedi: - bağı mənə sat.
Dedim: - Gəl bu fikri at.
Vəzir bağımı aldı,
Məni zindana saldı.
Şah buraxdı dustağı,
Qaytardı ona bağı.

Üçüncü dedi: - Mən də
Nahaq düşmüşəm bəndə.
Gəmidə üzə-üzə
Çıxardım göy dənizə.
Gəzərdim şəhərləri,
Gözəl-gözəl yerləri.
Bir səfərdən dönərkən
Mirvari almışdım mən.
Vəzir gördü incini,
Göstərdi qol gücünü.
Aldı bütün varımı,
O gözəl mirvarımı.
Üstümə atdı böhtan,
Yerimi etdi zindan.
Vəzir xəzinəsindən
İncini alıb həmən
Şah verdi sahibinə
Göndərdi öz evinə.

Dördüncü dustaq bir ah
Çəkib söylədi: - Ey şah,
Bir gözəl yarım vardı,
Qızılgülə oxşardı.
Saz çalardı bu dilbər,
Oxuyardı nəğmələr.
Vəzir aldı canımı,
Apardı cananımı.
Saldı məni məhbəsə,
Düşdüm dəmir qəfəsə.
Həsrət qaldım gözələ,
Ömrüm döndü xəzələ.
Əmr verdi Şəhriyar,
Tez qızı qaytardılar.
Çox sevinə-sevinə
Dustaq döndü evinə.

Yazıq beşinci dustaq,
Ürəyində sitəm, dağ,
Dedi: - Padşah sağ olsun,
Qüssədən uzaq olsun.
Mən bir alim insandım,
Hamıya mehribandım.
Vəzir bunu eşitdi,
Paxıllıq bunu diddi.
Göz dikdi cəlalıma,
Hörmətimə, malıma.
Tapdı bir çox bəhanə,
Məni saldı zindana.
Şah göstərib mərhəmət
Alimə verdi dövlət.

Altıncı dustaq dərdlə
Şaha söylədi belə:
- Mən bir igid əsgərdim,
Yoxdu heç qüssəm, dərdim.
Daim döyüş zamanı
Məhv edirdim düşməni.
Padşahın kölgəsində,
Bu abad ölkəsində
Vardı xoş güzaranım,
Şən keçirdi hər anım.
Vəzir aldı varımı,
Malımı, davarımı.
Dar zindan oldu yerim,
Artdı qəmim, kədərim.
Şah eşidincə bunu,
Aldı bunun könlünü.
Göstərib çox məhəbbət
Bağışladı mal-dövlət.

Yeddinci dedi: - Ey şah,
Məndə də yoxdur günah.
Mən bir fağır insandım,
Dərdi ağır insandım.
Dua idi adətim,
Yoxdu başqa niyyətim.
Vəzir saldı zindana,
Ömrüm düşdü tufana.
İşdən olunca agah
Zahidi buraxdı şah.
Ona hörmət göstərdi,
Çoxlu mal-dövlət verdi.
Sonra şah verdi fərman,
Vəzir asıldı dardan.

## İSGƏNDƏR VƏ ÇOBAN

Keçmiş zamanda
Yunanıstanda
İsgəndər adlı



Şöhrətli, adlı
Bir şah yaşarmış,
Buynuzu varmış.
İllər uzunu,
Şah buynuzunu
Gizli saxlarmış.
Çox darıxırmış.
Gözəl bir səhər
Böyük İsgəndər
Qəhrəmanlarla,
Pəhləvanlarla,
Çıxıbmış düzə.
Şahla üz-üzə
Gəlir bir çoban.
Şah deyir: "Çoban!
Gəl bir az ney çal,
Çöllərə səs sal,
Titrəsin dağlar,
Coşsun bulaqlar,
Açılsın güllər,
Gülsün könüllər".
Çoban ney çalır,
Bir səs ucalır:
"İsgəndərin buynuzu var,
buynuzu!
İsgəndərin buynuzu var,
buynuzu!"
Eşitcək bunu,
Şahın könlünü
Qəm-qüssə alır,
Qanı qaralır.
Deyir: "Ay çoban!
Bu sirri hardan
Öyrənmisən sən?
Əgər düz desən,
Azadsan, yoxsa
Alarsan cəza!"
Çoban deyir: "Mən
Çöldən ötərkən,
Gördüm bir quyu.
Quyunun suyu
Baldan şirindi,
Buzdan sərindi.
İçdim sərin su,
Kəsdin bir qarğu,
Ney düzəltdim mən.
Səs gəldi neydən:
"İsgəndərin buynuzu var,
buynuzu!
İsgəndərin buynuzu var,
buynuzu!"
İsgəndər şahın,
Zülqədər şahın
Qaynayır kini.
Tez dəlləyini
Çağırıb deyir:
"Bu necə işdir?!
Mənim sirrimi
İndiyə kimi
Bilən sən idin,
And içib dedin:
"Yaşadıqca mən
Bu sirr qəlbimdən
Çıxmaz, heç bir kəs
Bu sirri bilməz".
İndi çobanlar,
Tütək çalanlar
Bu sirri bilir,
El mənə gülür.
Nə məqsədlə sən
Sirri vermisən?
Düz söylə, yoxsa
Verərəm cəza!"
Dəllək çəkib ah,
Söyləyir: "Ey şah,
Heç bir çobana
Tütək çalana
Sirr açmamışam.
Ancaq bir axşam
Gördüm qəlbimi
Canavar kimi
Gəmirir bu sirr,
Bədənim əsir.
Mən ölə-ölə
Yollandım çölə,
Tapdım bir quyu.
Quyunun suyu
Baldan şirindi,
Buzdan sərindi.
Mən yana-yana
Baxdım dörd yana.
Yox idi heç kəs;
Bir səs, bir nəfəs.
Dərin quyuya,
Sərin quyuya
Sirri söylədim,
Yavaşca dedim:
"İsgəndərin buynuzu var,
buynuzu!
İsgəndərin buynuzu var,
buynuzu!"
Böyük İsgəndər
Beş-altı nəfər
Göndərir getsin,
Bir qarğı kəssin
Dərin quyudan.
Dörd-beş pəhləvan
Qarğını kəsir,
Bir ney düzəldir.
Ney gəlir dilə,
Oxuyur belə:
"İsgəndərin buynuzu var,
buynuzu!
İsgəndərin buynuzu var,
buynuzu!"
Bunu görüb şah
Çəkir dərin ah,
Soyuyur kini.
Bilir, eybini
Dünyada heç kəs
Gizlədə bilməz!

**Uşaqlar üçün hazırlayan:**
**Mirmehdi Seyidzadə**